AZƏRBAYCANIN BÜTÖVLÜYÜ, MÜSTƏQİLLİYİ VƏ TƏRƏQQİSİ

# RESPUBLİKA



*Gün gələcək
Azərbaycan dünyaya günəş kimi doğacaq.*

TƏSİSÇİ: AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİ VƏ QƏZETİN REDAKSİYA HEYƏTİ

7 AVQUST 2022-ci il BAZAR № 166 (7348) GÜNDƏLİK İCTİMAİ-SİYASİ, SOSİAL-İQTİSADİ QƏZET WWW.RESPUBLIKA-NEWS.AZ

# Yeni inkişaf mərhələsində yüksək rifah hədəfləri

**Ölkəmizdə aparılan genişmiqyaslı sosial-iqtisadi quruculuq prosesi, fiziki infrastrukturun müasirləşdirilməsi, insan kapitalının inkişafı sosial rifah göstəricilərinin başlıca hərəkətverici qüvvələridir. Artıq ölkəmiz zəruri infrastruktur və institusional inkişaf göstəriciləri üzrə beynəlxalq reytinqlərdə xeyli irəliləmiş, milli iqtisadiyyatın rəqabət qabiliyyəti yüksəlmişdir.**




*Azərbaycanda dayanıqlı iqtisadiyyatın formalaşması, işğaldan azad olunmuş ərazilərə böyük qayıdışın təmini, sosial ədalətə əsaslanan cəmiyyətin qurulması əsas prioritetlərdəndir*

Ümumi Daxili Məhsulun həcmi 3 dəfədən çox artmış, vətəndaşların həyat səviyyəsi nəzərəçarpacaq dərəcədə yaxşılaşmışdır. Lakin son illərdə dünya iqtisadiyyatında potensial iqtisadi artım templərinin aşağı düşməsi, qlobal maliyyə sabitliyinin kövrəkliyinin artması, koronavirus pandemiyası və onunla əlaqədar əksər ölkələrdə sosial-iqtisadi fəallığın məhdudlaşması Azərbaycan iqtisadiyyatında da yeni strateji siyasət çağırışları yaratmışdır.

Azərbaycan dünyada böyük inkişaf yolunu inamla keçərək sabit, təhlükəsiz və müasir həyat səviyyəsini təmin etmiş ölkə kimi tanınır. Ölkənin beynəlxalq nüfuzu əhəmiyyətli dərəcədə artmış, cəmiyyətdə dövlətçilik ənənələri güclənmiş, müasir sosial-iqtisadi infrastruktur quruculuğu uğurla həyata keçirilmişdir. İqtisadi inkişafdan qaynaqlanan yüksək maliyyə imkanları makroiqtisadi sabitlik və artıma mühüm töhfələr vermiş, təhlükəsizliyin təmini üçün güclü potensial yaratmışdır. Vətən müharibəsində qazanılan tarixi Zəfərdən sonra işğaldan azad edilmiş ərazilərin ölkənin ümumi iqtisadiyyatına reinteqrasiyası, yeni beynəlxalq və regional nəqliyyat-logistika dəhlizlərinin imkanlarından faydalanmaq Azərbaycanın inkişafına böyük təkan verəcəkdir.

(davamı 3-cü səhifədə)

**(əvvəli 1-ci səhifədə)**

# YENİ İNKİŞAF MƏRHƏLƏSİNDƏ YÜKSƏK RİFAH HƏDƏFLƏRİ



*Azərbaycanda dayanıqlı iqtisadiyyatın formalaşması, işğaldan azad olunmuş ərazilərə böyük qayıdışın təmini, sosial ədalətə əsaslanan cəmiyyətin qurulması əsas prioritetlərdəndir*

Regionda təhlükəsizliyin, sabitliyin, rifahın və qarşılıqlı faydalı əməkdaşlığın formalaşması, eləcə də iqtisadi və ticarət əlaqələrinin inkişafı Cənubi Qafqazın lider dövləti olan Azərbaycanın region iqtisadiyyatının ümumi arxitekturasının müəyyən edilməsində rolunu daha da möhkəmləndirəcək. Azərbaycan dövləti ölkədə əhalinin rifah halının daha da yaxşılaşdırılması istiqamətində sosialyönümlü bazar iqtisadiyyatının inkişaf etdirilməsi yolunu seçmişdir.

Məhz buna görə də, Azərbaycan Respublikası Prezidenti ötən il "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında Sərəncam imzalamışdır. Sərəncamda qeyd olunur ki, müstəqil və suveren Azərbaycan dövləti postpandemiya və postkonflikt dövründə keyfiyyətcə yeni və 2021-2030-cu illəri əhatə edən strateji mərhələyə daxil olur. Ölkənin ərazi bütövlüyünün bərpası ilə səciyyələnən yeni strateji dövrdə dərin struktur-institusional islahatlar hesabına yüksək iqtisadi artım mənbələrinin tapılması vasitəsilə Azərbaycan dövlətinin qüdrətinin daha da artırılması, yüksək rifah cəmiyyətinin qurulması, azad edilmiş bölgələrə tarixi qayıdış və əbədi məskunlaşma təmin edilməlidir. Qlobal iqtisadi reallıqlar, eləcə də yeni inkişaf mərhələsində qarşıya qoyulmuş məqsədlər ölkənin uzunmüddətli inkişaf vektorunun, əsas sosial-iqtisadi inkişaf istiqamətlərinin və buna uyğun milli prioritetlərin müəyyən olunmasını tələb edir.

Dayanıqlı artan rəqabətqabiliyyətli iqtisadiyyat ölkədə adambaşına düşən milli gəlirin yüksək səviyyəsinə nail olunması istiqamətində tədbirləri nəzərdə tutur. Qeyd edək ki, sərəncamda diqqətçəkən məqamlardan biri də daxili və xarici təsirlərə dayanıqlıq məsələsidir. Bildirilir ki, milli iqtisadiyyatımız qlobal iqtisadiyyatın tərkib hissəsi olduğundan xarici mühitdən təsirlənə bilir. Bu səbəbdən, iqtisadiyyatın daxili və xarici təsirlərə dayanıqlılığı gücləndirilməli, makroiqtisadi sabitlik daha da möhkəmləndirilməlidir. Ölkədə makroiqtisadi sabitliyin və dayanıqlılığın gücləndirilməsi məqsədilə yeni reallıqlara uyğun büdcə qaydasına əsaslanan fiskal çərçivə formalaşdırılmalıdır. Yalnız şaxələndirilmiş iqtisadiyyat dayanıqlı ola bilər. Bunun üçün iqtisadiyyatda qeyri-neft sektorunun payının artmasına nail olmaqdır. Uğurlu sosial-iqtisadi və siyasi nailiyyətlər, milli və multikultural dəyərlər qarşıdakı illərdə Şərqlə Qərbin qovşağı olan Azərbaycanın qüdrətinin daha da artacağına əminlik yaradır. Bu imkanlar 2030-cu ilə qədər olan mərhələdə Azərbaycanın iqtisadi suverenliyinin möhkəmləndirilməsinə və müasir həyat standartlarına əsaslanan yüksək sosial rifah cəmiyyətinə malik qüdrətli dövlətə çevrilməsinə zəmanət verir.

Son 19 ildə dinamik inkişaf əsasında ölkə iqtisadiyyatının həcmi böyüyüb, güclü sosial-iqtisadi infrastruktur yaradılıb, pozitiv demoqrafik artım şəraitində yoxsulluq səviyyəsi əhəmiyyətli dərəcədə azalıb. Mövcud maliyyə imkanları maksimuma çatdırılıb və ölkə yuxarı orta gəlirli dövlətlər qrupunda möhkəmlənib. Sənəddə bildirilir ki, artan iqtisadi güc Azərbaycana Cənubi Qafqazın və ətraf regionların iqtisadiyyatlarını dəyişdirməyə qadir böyük layihələrin təşəbbüskarı olmaq imkanı verib. Ölkə regional iqtisadiyyatın lokomotivi olaraq dünyanın enerji təhlükəsizliyinin etibarlı tərəfdaşlarından birinə çevrilib. Ölkəmizin ərazi bütövlüyünün bərpası ilə səciyyələnən strateji dövrdə iqtisadi artım dövlətimizin qüdrətinin daha da yüksəlməsinə möhkəm zəmin yaradacaq.

Dünyada ətraf mühitin çirklənməsi, azalan təbii ehtiyatlar və artan tələbat fonunda dayanıqlı inkişafa nail olmaq üçün "yaşıl" iqtisadiyyatın genişləndirilməsi istiqamətində həyata keçirilən tədbirlər böyük əhəmiyyət daşıyır. Təsadüfi deyil ki, Prezident İlham Əliyev tərəfindən təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"də istiqamətlərdən biri "Təmiz ətraf mühit və "yaşıl artım" ölkəsi" adlanır. Sənəddə ekoloji təmiz texnologiyaların tətbiqinə əhəmiyyətli yer verilməsi, tullantıların təkrar emalı və çirklənmiş ərazilərin bərpasının təşviqi, ekoloji baxımdan əlverişli olan "yaşıl" texnologiyaların tətbiqinin genişləndirilməsi ilə bağlı qarşıya konkret tapşırıqlar qoyulub. Hazırda dünya iqtisadiyyatının "yaşıl enerji"yə transformasiyası daha da sürətlənir və 2050-ci ilə kimi dünyada istehsal edilən enerjinin üçdəikisi bərpaolunan enerji hesabına alınacaq. Azərbaycanın bu prosesdən kənarda qalması mümkün deyil. "Xızı-Abşeron" Külək Elektrik Stansiyasının təməlqoyma mərasimində ölkə başçısının da vurğuladığı kimi bərpaolunan enerji növlərinin istehsalı enerji sahəsində bizim gündəliyimizdə duran ən başlıca vəzifələrdən biridir.

Dövlət başçısı çıxışlarında dəfələrlə vurğulayıb ki, iqtisadi müstəqilliyimiz bizə müstəqil xarici siyasət aparmağa imkan yaradır. Bu səbəbdən, milli prioritetlər qarşıdakı illər ərzində sosial ədalətə əsaslanan idarəetmənin formalaşdırılması ilə iqtisadiyyatın hərtərəfli və dayanıqlı inkişafını stimullaşdıracaq, vətəndaşların sosial rifahını daha da yaxşılaşdıracaq.

**Mustafa KAMAL,**
**"Respublika".**